# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Mallardan dövlətin xeyrinə imtina edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 28 fevral tarixli 35 nömrəli, “Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər”in təsdiq edilməsi haqqında” 2013-cü il 18 may tarixli 51 nömrəli, “Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 12 sentyabr tarixli 93 nömrəli, “Gömrük ekspertizasının aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 12 sentyabr tarixli 94 nömrəli, “Nəzarətli göndəriş metodundan istifadə etməklə muxtar respublikanın gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 12 sentyabr tarixli 95 nömrəli, “Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qayadaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 17 sentyabr tarixli 96 nömrəli, “Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 17 sentyabr tarixli 98 nömrəli, “Gömrük orqanlarına təqdim edilmiş malların məhv edilmə halları və Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 17 sentyabr tarixli 99 nömrəli qərarlarının ləğv edilməsi barədə**

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 1891 nömrəli Fərmanına və “Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərman və sərəncamlarının ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 31 yanvar tarixli 148-VI FR nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Mallardan dövlətin xeyrinə imtina edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 28 fevral tarixli 35 nömrəli, “Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər”in təsdiq edilməsi haqqında” 2013-cü il 18 may tarixli 51 nömrəli, “Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 12 sentyabr tarixli 93 nömrəli, “Gömrük ekspertizasının aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 12 sentyabr tarixli 94 nömrəli, “Nəzarətli göndəriş metodundan istifadə etməklə muxtar respublikanın gömrük sərhədindən keçirilən mülki dövriyyədən çıxarılmış və ya mülki dövriyyəsi məhdudlaşdırılmış malların götürüldüyü hallar və bunun Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 12 sentyabr tarixli 95 nömrəli, “Malların son istifadə xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qayadaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 17 sentyabr tarixli 96 nömrəli, “Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 17 sentyabr tarixli 98 nömrəli, “Gömrük orqanlarına təqdim edilmiş malların məhv edilmə halları və Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 17 sentyabr tarixli 99 nömrəli qərarları ləğv edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “1” fevral 2023-cü il

№ 28